| Xidmətin adı: | **7. Təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi** |
|---|---|
| Tələb olunan sənədlər: | - ərizə;<br>- ərizəçi fiziki şəxs olduqda -şəxsiyyətini təsdiq edən sənədin surəti;<br>- ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;<br>- hüquqi şəxsin dövlət reyestrindən çıxarışının surəti;<br>- ərizəçinin nümayəndəsi müraciət etdikdə onun səlahiyyətlərini təsdiq edən sənəd;<br>- dövlət rüsumunun ödənilməsi barədə sənəd; |
| Dövlət rüsumunun məbləği | 10 manat (bir sənəd üçün) |
| Tələb olunan müddət: | "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununun 19.9-cu maddəsinə uyğun olaraq 7 iş günündən gec olmayaraq (Qanunun 19.7-ci maddəsində qeyd olunan müddətlər bu müddətə şamil edilmir). |

**Qeyd 1:** Ərizədə və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, yükün daşıdığı risk səviyyəsinə uyğun olaraq seçilmiş nümunələrin ekspertizadan keçirilməsi zamanı, icazəni verən dövlət orqanı, zəruri hesab etdikdə konkret fəaliyyət növünün xüsusiyyətlərindən asılı olaraq müvafiq rəy alınması üçün aidiyyəti dövlət orqanlarına müraciət etdikdə, icazə verən dövlət orqanı ekspert və ya mütəxəssisin cəlb olunması ilə bağlı aidiyyəti dövlət orqanına müraciət etdikdə tətbiq olunan müddətlər qeyd olunan müddətə daxil edilmir.

**Qeyd 2:** Məhsul partiyasının sertifikatlaşdırılması zamanı bitkilərin karantin zərərvericilərini, xəstəlik törədicilərini və təhlükəli alaq otlarının müəyyən edilməsi məqsədilə daşıdığı risk səviyyəsinə uyğun olaraq ekspertizası aparılır.

**Qeyd 2:** Təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatlarının verilməsi zamanı göstərilən xidmətlərin dəyəri yuxarıda qeyd olunan məbləğə aid deyil.